# Ətraf mühitin qorunması insan sağlamlığının rəhnidir



*Ölkə rəhbərliyinin uğurla apardığı sosial və iqtisadi siyasətin nəticəsi olaraq əldə edilmiş güclü tərəqqi səhiyyənin profilaktik istiqamətli əhalinin sanitariya-epidemioloji sağlamlığının təmin olunmasına da öz müsbət təsirini göstərməkdədir.*

*Səhiyyənin davamlı inkişaf strategiyasının tərkib hissəsi olan maddi-texniki bazanın gücləndirilməsi, yoluxucu xəstəliklərə qarşı aparılan səmərəli tədbirlər, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq, ümumilikdə əhalinin sağlamlığının yaxşılaşdırılmasında mühüm rol oynayır.*

*Vurğulamaq lazımdır ki, insan sağlamlığının qorunub saxlanılmasında əsas faktorlardan biri, bəlkə də ən başlıcası ətraf mühitin qorunmasıdır. Bu, hər an bütün insanları düşündürməlidir. Bu sahədə Bakının Nərimanov rayonundakı Gigiyena və Epidemiologiya Mərkəzində təqdirəlayiq işlər aparılır. Mərkəzin direktoru **Nurulla Məmmədovla** söhbət edərkən o, bizi maraqlandıran məsələlərə aydınlıq gətirərək dedi:*

—"Sanitariya-epidemioloji sağlamlıq haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq maddəsinə əsasən Azərbaycan Respublikası vətəndaşları onların səhhətinə mənfi təsir göstərməyən, sanitariya-epidemioloji sağlamlığını təmin edən əlverişli mühitdə yaşamaq hüququna malikdirlər.

Əhalinin sanitariya-epidemioloji sağlamlığı dedikdə ictimai sağlamlığın və insanların yaşayış mühitinin elə bir halı nəzərdə tutulur ki, bu mühitin amilləri insan orqanizminə təhlükəli və zərərli təsir göstərməsin və insanın həyat fəaliyyəti üçün əlverişli şərait yaradılsın.

İnsanı əhatə edən ətraf mühit amilləri çox geniş və əhatəli bir anlayışdır və həmin amillərə bioloji (virus, bakterial, parazitor və digərləri), kimyəvi, fiziki (səs-küy, titrəmə, ultrasəs, infrasəs, istilik, ionlaşdırıcı və digər şüalar), ictimai (qidalanma, su təchizatı, məişət, əmək şəraiti, istirahət) və digər amillər aiddir və həmin amillər insanların sağlamlığına mənfi təsir göstərə bilər.

İnsanın həyat fəaliyyəti üçün əlverişli şərait dedikdə ilk növbədə ətraf mühit amillərinin insan sağlığına zərərli təsir göstərmədiyi və insan orqanizminin pozulmaz funksiyalarının bərpasının mümkün ola bilməsi vəziyyəti başa düşülür.

İnsanı əhatə edən bioloji amillərin mənfi təsirindən qorunması üçün yoluxucu xəstəliklərin profilaktikası sahəsində bir sıra qanunvericilik aktları qəbul edilmişdir.

Vətəndaşların sanitariya-epidemioloji sağlamlığını təmin edən əlverişli mühitdə yaşamaq hüquqlarının təminatı üçün su təchizatı sistemlərinin yaxşılaşdırılması, təhlükəsiz, keyfiyyətli qidalanma da başlıca şərtdir.

Nurulla Məmmədov sözünə davam edərək bildirdi ki, mayın 18-dən iyunun 18-dək ölkəmizdə ətraf mühitin qorunması ilə bağlı "İnsan hüquqları" aylığı keçirilir. Bu aylığın keçirilməsi ətraf mühitdə yaşamaq hüququnun təbliğinə həsr olunmuşdur. Aylığın keçirilməsi ilə bağlı Nərimanov rayonunun ərazisində tədbirlər planına uyğun olaraq geniş iş aparılır.

Bir sözlə, mərkəzin kollektivi ikiqat səylə çalışır, qayğı və diqqət ətraf mühitin yaxşılaşdırılması və insanların sağlamlığının qorunub saxlanılmasına yönəldilmişdir.

Ötən illə müqayisədə rayon ərazisində polimelit, qarayara, göyöskürək, Paratit A, B, difteriya, məxmərək, qarınyatalağı, skarlatina, malyariya xəstəlikləri qeydə alınmamışdır. Digər xəstəliklər isə minimum həddə endirilmişdir.

Bu məqsədlə rayon ərazisində yerləşən 6, 7 və 14 saylı uşaq poliklinikalarında uşaqlara yoluxucu xəstəliklərə qarşı (hepatit, polimelit, hib, göyöskürək, difteriya, tetanus, qızılca, məxmərək, paratit) mərkəzin nəzarəti ilə vaksinlər vurulur və bu "soyuq zəncir" sistemi ilə icra olunur. Peyvənd işləri sanitariya qaydalarına uyğun həyata keçirilir.

Qeyd etmək lazımdır ki, rayon icra hakimiyyəti, polis idarəsi, Nərimanov rayon Gigiyena və Epidemiologiya Mərkəzinin həyata keçirdiyi tədbirlər nəticəsində rayon ərazisində ətraf mühitin qorunması üçün küçə ticarəti ləğv olunmuşdur.

Rayonda təmizliyin qorunması ixtisaslaşdırılmış mənzil kommunal xidməti idarəsi tərəfindən həyata keçirilir. Məişət tullantılarının daşınması əsasən gecələr aparılır. Rayonda gündəlik olaraq müxtəlif ünvanlardan 1280 kubmetr məişət tullantılarının daşınması üçün 300 zibil meydançası və 1410 ədəd konteyner ayrılmışdır. Məişət tullantılarının daşınması üçün 12 maşın-mexanizm fəaliyyət göstərir.

Rayon ərazisində əhaliyə verilən içməli suya ciddi nəzarət olunur. Məhəllədaxili su anbarları yaz-yay mövsümlərində su-kanal idarəsinin işçiləri tərəfindən qrafikə uyğun olaraq yuyulub, zərərsizləşdirilmişdir. Bu işdə mərkəzin mütəxəssisləri yaxından iştirak edirlər. Belə ki, su anbarları yuyulduqdan sonra oradan bakterioloji və kimyəvi müayinələr götürülür. Nümunələr qənaətbəxş olduqda əhaliyə içməli su verilir.

Ümumiyyətlə, rayon ərazisində suya nəzarət məqsədilə 8 stasionar nöqtədən vaxtaşırı bakterioloji və kimyəvi müayinələr götürülür. Qeyri-qənaətbəxş cavab olduqda dərhal profilaktiki tədbirlər görülür. 2016-cı ilin ötən 5 ayında 1366 bakterioloji və 565 kimyəvi müayinə aparılmışdır.

**Söhbəti yazdı:**
**Qədir ASLAN,**
**"Respublika".**